**UOT:598.2/9**

# QIZILAĞAC MILLI PARKINDA QUŞLARIN ÖYRƏNILMƏSI TARIXI

**KƏRİMOVA N.Ə., TAĞIYEV Ə.N.**
*Bakı Dövlət Universiteti*
natakerimova016269@gmail.com, abulfaztagiyev@yahoo.com

**Abstract:** In the Gyzlaghach National Park the history of the study of the birds was investigated from the second half of the 20th century to thr current period. Some wintering, sedentary, breeding, migratory species, their habitat character. Trophic and biotophic relationships, number and other ecological characteristics were studied at different times at the species level by foreign and local personnel.
**Keywords:** *sedentary, wintering, breeding, population, migration*

Qızılağac MP-ı Azərbaycanda su-bataqlıq quşlarının zəngin növ müxtəlifliyinə malik mühim ornitoloji ərazisidir. Ərazi 1926-cı ildən yasaqlıq, 1929-ci ildən qoruq, 2018-ci ildən milli park statusu ilə qorunur. Ərazi su, su-bataqlıq və quru sahələrdən ibarət olduğuna görə müxtəlif ekoloji qruplara aid quş populyasiyalarının birgə qonşuluq şəraitində yaşamasına imkan verir. Ərazinin ekoton sahələrində məskunlaşan canlılar biosenoloji və təsərüffat baxımından tədqiqatçıların daim diqqət mərkəzində olub. Su-bataqlıq ərazilərinin öyrənilməsi və qorunmasına Ramsar konvensiyası həsr olunub [7]. Qızılağac Milli Parkının ornitofaunasına həsr olunmuş çoxsaylı tədqiqat işləri əsasən XIX əsrin ikinci yarısından aparılıb. Ərazidə ornitofaunanın kəmiyyət və keyfiyyət göstəricilərinin öyrənilməsi ərazinin qiymətləndirilməsi üçün mühim əhəmiyyət kəsb edir.

Azərbaycanda quşların öyrənilməsi haqqında uzaq keçmişdən XVIII əsrə qədər olan məlumatlar folklorda, bədii ədəbiyyatda, müxtəlif sənədlərdə dağınıq halda və müəyyən səhvlərlə yayılıb. Azərbaycanda quşların öyrənilməsinin XVIII əsrdən sonrakı məlumatları zooloji ədəbiyyata daxil edilərək Avropanın, Rusiyanın, Qafqazın, İranın, Orta Asiyanın və s. ölkələrin zooloji ədəbiyyatlarında verilmişdir [2]. Bu dövrdə quşlara aid elmi biliklər səthi idi.

1770-1774-cü illərdə Samuil Qmelin tərəfindən Xəzərin cənub-qərb sahilinə təşkil olunmuş ekspedisiyada quşlara aid müəyyən materiallar toplanıb. K.A. Satunin (1912), Q.İ.Radde (1884), Q.İ.Paude *Pernis apivorus* haqqında, *Clangula hyenmalis* haqqında Menetriye (1832), Hokknager (1837), İ.A.Simirnov, B.C.Qrekov, S.K.Bobrinski, E.X.Laudon və başqaları müxtəlif quşlar haqqında məlumatlar veriblər [3]. Quşların öyrənilməsinə aid əsas tədqiqatlar 1920-ci illərdən sonrakı dövrlərdə əcnəbi alimlərlə yanaşı yerli mütəxəssislərin iştirakı ilə aparılıb və Azərbaycanda quşların zəngin kolleksiyası yaradılıb. Azərbaycanda qeydə alınan zəngin quş növlərinin növ tərkibi dəqiqləşmiş, bəzi qrup quşların yaşayış yeri, həyat tərzi və yayılması ətraflı öyrənilmişdir [4]. 1920-1930-cu illərdə N.K.Belov, V.V.Vitoviç, N.A.Mişetskinin əsərlərində Qızılağacda köçəri və qışlayan quşlara aid tədqiqatlar aparılmışdır. 1932-ci ildə Xəzərin cənub-qərb sahilində su quşlarının qışlamasını və tədarük edilməsini öyrənmək üçün N.İ.Sobolovski Azərbaycanda tədqiqatlar aparıb. 1930-1940-cı illərdə N.İ.Sobolevski, A.Z.Tuqorinov, Z.V.Kozlova-Puşkaryova Xəzərin Qızılağac körfəzində quşların qışlamasını tədqiq ediblər. Z.A.Bakov, K.A.Vorobyov Xəzərin cənub sahillərində qışlayan quşlara həsr olunmuş iki böyük məqalə (1940) çap etdirib [1].

Xəzərin cənub-qərb sahilində quşların qışlamasına dair İ.P.Spangenberq, S.S.Turovun tədqiqat işlərində müxtəlif ekoloji qruplara aid qışlamağa gələn quşların sayı,əsas toplantı yerləri haqqında yeni məlumatlar əldə edilib. M.K.Vereşşaginin bir neçə əsərində Azərbaycanda quşların qışlamasından geniş bəhs edilib. D.Q.Tuayev Qızılağac qoruğunda çay ördəklərinin qışlamasını, A.İ.Xanməmmədov və Q.T.Mustafayev Azərbaycanda quşların başlıca qışlaqlarının yerləşmə xəritəsini tərtib ediblər. Quşların qışlama dövründə əsas toplantı yerləri və onlara təsir edən amilləri V.V.Vinoqradov, K.M.Qəmbərov, B.P.Dobroxotov, N.N.Drozdov, B.S.Qrekov, İ.A.İsakov, T.İ.Oliger, D.Q.Tuayev, V.İ.Vasilyev öyrənib. Azərbaycanda qış mövsümündə şaxtalı havalarının quşlara təsirini Q.T.Mustafayev, B.T.Butyev, O.A.Volkova, N.N.Drozdov, A.M.Ələkbərov, İ.M.Çilikina, Ş.A.Yaqubov və b. tədqiq ediblər.

Xəzərin cənub-qərb sahilində qışlayan və ötüb keçən quşların miqrasiya yolunda vaxtını A.Y.Tuqarinov, Y.V.Kozlova-Puşkaryova, Y.A.İsakov və K.A.Vorabyov öyrənib. A.Y.Tuqarinov quşların yaz miqrasiyasında, Y.V.Kozlova-Puşkaryova Xəzərin cənub-qərb adalarında qışlayan quşların miqrasiyasını və nəsil vermək üçün gələn növlərin növ tərkibini müəyyən ediblər [4]. A.İ.İvanov Xəzərin cənub-qərb sahilində yazda quşların köçməsini tədqiq edib.

Q.T.Mustafayev, K.C.Kazımov, B.C.Qrekov, V.İ.Vasilyev Qızılağac qoruğunda leyləkkimilərin və kürəkayaqlılarının koloniyalarının həyat tərzini ətraflı öyrəniblər [1] Q.T.Mustafayevin və K.C.Kazımovun məqaləsində Qızılağac qoruğundakı quşların əmələ gətirdiyi düşərgələrin ətraf mühiti və qarşılıqlı əlaqəsi verilib.

Azərbaycanda quşların trofik əlaqələri zəif öyrənilib. A.A.Krasovsev Xəzərin cənub-qərb sahilində turacın yemi barədə tədqiqatlar aparıb. N.A.Qladvov və B.S.Zalatayevin məqaləsində Xəzərdə gümüşü qağayının yemindən bəhs edilib. Q.T.Mustafayev adi sağsağan, zağca qarğa və boz qarğanın yemi barədə məqalələr yazıb. B.İ.Vasilyevin məqaləsində adi qağayı, adi sterna və iri maygülünün yemindən bəhs olunub. Q.T.Mustafayev, K.C.Kazımova və H.C.Abbasov (1967) Qızılağac qoruğunda leyləkkimilərin və kürəkayaqlıların yuvasında balaların yemləndirilməsinə dair materiallar toplanıb..

Uzun müddət ərzində müxtəlif ornitoloji ədəbiyyatlarda Azərbaycanda quşların sayına dair hesabatlar təxmini xarakter daşıyıb. Sonrakı tədqiqatlarda konkret sahə vahidinə düşən quşların sayı daha dəqiq verilməyə başlayıb. Xəzərin cənub-qərb sahilində - Qızılağac körfəzində quşların sayının öyrənilməsi Azərbaycanın digər bölgələrinə nisbətən daha yaxşı öyrənilmişdir. A.Y.Tuqarinov, Y.V.Kozlova-Puşkaryova (1935-1938), D.Q.Tuayev (1967), V.V.Vinoqradov və S.İ.Çerkyavskaya (1963), B.P.Dobroxotov (1963), V.S.Qrekov (1965), D.S.Bakov (1965), T.İ.Oliyer (1967), Q.T.Mustafayev, Y.M.Çilikina, Ş.Yaqubov (1969) və b. quşların sayğısını və say dinamikasının dəyişilməsini tədqiq ediblər. T.D.Vorobyova Qızılaqac qoruğunda quşların miqrasiyasını, V.V.Vinoqradov, N.İ.Morozkin quşların əsas yaşama yerlərinin tiplərini oyrəniblər [6]. N.A.Konovalova quşların yuvalama koloniyalarını, T.D. Vorobyov Qızılağac qoruğunda bəzgəkin məskunlaşması, sayı və biologiyasına aid tədqiqatlar aparıb.

Q.T.Mustafayev və Ç.A.Ağayeva (1969) Qızılağac qoruğunda quşların biokütləsini və onun illik dinamikasını öyrəniblər. Qoruqda yay fəslində quşların sayını Q.T.Mustafayev və K.C.Kazımov (1965, 1966) və V.S.Qrekov (1965) aparıblar. N.K.Belov (1924), V.V.Vitoviç (1924, 1930), M.A.Mişetski (1929), D.K.Qolovin (1935), N.Blaqoveşenski (1935), L.O.Şapoşnikov (1936), L.B.Böme (1937) plansız və qanunsuz ovçuluğun quşların təbii ehtiyyatına zərərli təsirini göstəriblər.

A.O.Dünin (1960) Kiçik Qızılağac körfəzi suyunun şirinləşməsindən sonra onun ornitofaumasında baş vermiş dəyişikliklərdən, N.İ.Burçaq-Abromoviç və K.M.Qəmbərov (1961) Xəzərin sahilində həyata keçirilən təsərrüfat tədbirlərinin quşlara təsirindən bəhs etmişlər. Q.T.Mustafayev (1964, 1965) və Y.A.İsakov (1965) Azərbaycanda qışlayan quşların ehtiyyatının azalmasının antropogen səbəbləri və onların aradan qaldırılması barədə bir sıra fikir irəli sürüblər. Q.T.Mustafayevin və K.C.Kazımovun (1966) məqaləsində Qızılağac qoruğunda qış düşərgələrinin sayının azalmasının antropogen səbəbləri verilib.

T.İ.Blyumental (1969) Qızılağac qoruğunda sərçəkimilərin yaz miqrasiya dövrünü öyrənmişdir. V.T.Butyev, O.A.Volkova, N.N.Drozdov 1963-64-cü illərdə sərt qışın Qızılağac qoruğunda su quşlarına təsirini, B.İ.Vasilyev *Larus ridibundus*, *Sterna hurindo*, *Podiceps cristatus* növlərinin balıq təsərrüfatına təsirini tədqiq etmişdir.

V.İ. Vasilev Xəzərin cənub-qərb sahilində balıqyeyən quşların biologiyasını (1970) öyrənib. N.A.Qladkov (1957) böyük qarabatdağın və gümüşü qağayının Xəzər dənizində məskunlaşması və miqrasiyasını, V.S.Qrekov adi flaminqonun, sultantoyuğunun, adi qaşqaldağın Cənubi Xəzərdə qışlamasını, V.P.Zabloçkey, L.İ.Zabloçkaya Xəzərin cənub-qərb sahilində qağayıların faunasını və balıq təsərrüfatında əhəmiyyətini öyrənib. A.İ.İvanov quşların yaz miqrasiyasını, Y.A.İsakov Xəzərin qərb sahilində qışlayan quşların müasir vəziyyətini, Y.A.İsakov, K.A.Vorobyov Cənubi Xəzərdə quşların qışlaması və miqrasiyasını, E.V.Kozlova Xəzər adalarında yay aylarında quşların faunasını öyrənib. T.İ.Oliqer (1967) Qızılağac qoruğunda quşların qışlamasına dair, N.N.Skokova Xəzər dənizinin Lənkəran sahillərində böyük qarabatdağın məskunlaşmasını və miqrasiyasını araşdırıb.

Qızılağac MP-da quşların öyrənilməsində İ.R.Babayevin xüsusi xidmətləri olub. İlyas Babayev su və sahil quşlarının müasir ekoloji vəziyyəti mövzusunda apardığı elmi tədqiqat işlərində Qızılağaca aid çoxlu elmi əsərlər nəşr etdirmişdir. O, Xəzər dənizinin Azərbaycan sektorunun cənub hissəsində qaraördəklərin və pazdimdiklərin müasir vəziyyətinin öyrənilməsi elmi-tədqiqat işinin rəhbəri olmuş, qışlamağa gələn nadir və nəslinin kəsilmək təhlükəsi yaranmış quşların Qızılağac MP-da əsas qışlama yerləri və onlara təsir edən ətraf mühit amillərini tədqiq etmiş və xəritələşdirmişdir.

E.H.Sultanov Qızılağac MP-da Azərbaycan üzrə təhlükədə olan bir sıra növlərin (qıvrımlələk qutan, göydimdik ördək, kiçik əyridimdik, ağ durna və s.) tədqiqinə aid bir sıra məqalələr nəşr etdirmişdir. Azərbaycanın bütün Ornitoloji Ərazilərini ilk dəfə təsvir edən kitabın hazırlanmasına, Azərbaycanda su-bataqlıq ərazilərdə quşların yay və qış ornitokomplekslərinin öyrənilməsinə böyük zəhmət sərf etmişdir.

R.Ə.Hüseynov, H.Ş.Muxtarov Qızılağac körfəzində qışlamağa gələn müxtəlif quş növlərinin toplandığı əsas ərazilər, quşların sayğısı və illər üzrə say dinamikası haqqında elmi əsərlər nəşr etdirmişlər. Qızılağac MP-da Ə.N.Tağıyev quşların məskunlaşma xarakterini, trofik və biotopik əlaqələrini tədqiq etmişdir.

Qızılağacda nəsil verən quşlar haqqında məlumatlar çüzidir və növ səviyyəsində araşdırılıb, kompleks parametrlər əsasında öyrənilməyib. Ərazidə oturaq və köçəri-yuvalayan növlər populyasiya səviyyəsində dəqiqləşdirilməyib. Nəsil verən quşların növ tərkibi, reproduksiya şəraiti və onlara təsir edən ətraf mühit faktorları haqqında məlumatlar demək olar ki yox dərəcəsindədir. Son illər Xəzər dənizində suyun səviyyəsinin aşağı düşəcəyi haqqında dünya informasiya məkanında məlumatlar yer almaqdadır. Qızılağac MP-na nəsil verməyə gələn quşlar əsasən Cənub-Şərqi Asiya ölkələrindən gəlirlər. Bu quşların kəmiyyət və keyfiyyət göstəricilərini öyrənmək və onlara təsir edən ətraf mühit amillərini qiymətləndirmək vacib məsələlərdəndir.

## ƏDƏBİYYAT


1. Mustafayev Q.T., Tuayev D.Q. Azərbaycan faunası (Nonpasseriformes). VI cild. Quşlar. Bakı, Elm, 1977, 315 s.
2. Мустафаев Г.Т. Обзор орнитологнческнх нсследованнй в Азербайджане за Советское время. Орннтологпя. Вып. XI. M., нзд. МГУ, 1974, с. 163-183
3. Tuayev D.Q. Azərbaycan quşlarının kataloqu. Bakı, ”Elm”, 2000, 240 s.
4. Mustafayev Q.T., Sadıqova N.A. Azərbaycanın quşları. Bakı: “Çaşıoğlu” 2005, 419 s.
5. Azərbaycanın heyvanlar aləmi III cild, Bakı - “Elm” -2014, 620 s.
6. В.В.Впноградов, Н.Н. Морозкнн «Тппы угодпй Кызыл-Агачского заповедннка и их качественная оценка как среды обнтання водоплавающнх птнц», Главное управленне по охране прпроды, заповедннкам, лесному и охотннчьему хозяйствам МХС СССР, Прпродная среда и птнцы побережпй Каспийского моря и прплежащих ннзменностей, Труды Кызыл-Агачского государственного заповедннка, выпуск I, Азербайджанское государственное нздательство, Баку- 1979 с. 17-41
7. Конвенцня о водио-болотиых угодьях, нмеющпх международное значенне, главным обрюзом в качестве местообптання водоплавающих итиц (Рамсар) // Свод норматнвных актов ЮНЕСКО. – М.; Международные отношення, 1991. с. 191-199